MahadSunnah

هيثم سرحان

# توحيد الربوبية

# RUBUBİYYƏT TÖVHİDİ


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

**Tərcümə edən: İlqar Eyvazoğlu**




Azərbaycan dili

اللغة الأذرية


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

# *Allahın ﷻ qulları üzərində olan haqqlarını bilirsənmi?*

Heç dümünmüsənmi ki, Allahın ﷻ sənin üzərində olan haqqlarını necə yerinə yetirə bilərsən?

Allahın ﷻ qulları üzərində olan haqqı onu ibadətlərində təkləşdirməsi və ona heç bir şeyi şərik qoşmamasıdır.

*Tövhidin üç qismi var:*

- *Rububiyyət tövhidi*
- *Uluhiyyət tövhidi*
- *Əsma və Sifət tövhidi.*[1]

***Rububiyyət tövhidi:***

Allahı ﷻ feillərində təkləşdirməkdir.[2]

Müsəlman qəti şəkildə iqrar etməlidir ki:

- ✓ Yaratmaqda, ruzi verməkdə və idarəçilikdə yalnız Odur tək rəbb.

---

[1] İənətul Mustəfid şərh kitəbut-Tovid 2/139
[2] Usulul imən fi dovil-Kitəb vəs-Sunnə 11

Allah ﷻ buyurur:

قال تعالى: ﴿قُلْ مَن يَرْزُقُكُم مِّنَ ٱلسَّمَآءِ وَٱلْأَرْضِ أَمَّن يَمْلِكُ ٱلسَّمْعَ وَٱلْأَبْصَٰرَ وَمَن يُخْرِجُ ٱلْحَىَّ مِنَ ٱلْمَيِّتِ وَيُخْرِجُ ٱلْمَيِّتَ مِنَ ٱلْحَىِّ وَمَن يُدَبِّرُ ٱلْأَمْرَ ۚ فَسَيَقُولُونَ ٱللَّهُ ۚ فَقُلْ أَفَلَا تَتَّقُونَ ﴿٣١﴾﴾ [يُونُس : ٣١]

"De: "Sizə göydən və yer--dən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs (belə olduğu halda) (Allahdan) qorxmursunuz?""[3]

- ✓ Eləcə də, sahibkarlıqda, öldürmək və diriltməkdə tək olduğun iqrar etməlidir.
- ✓ Xeyir və zərər verən, sıxıntı anında duaları qəbul edən yalnız Odur.
- ✓ Odur saysız nemətlərini bütün qullarına verən.
- ✓ Hidayət nemətini isə mömin qullarına verən Odur.
- ✓ Odur hər bir şeyin rəbbi, xaliqi və qüdrətlisi.
- ✓ Heç bir şey onun rububiyyətindən qırağa çıxmır.
- ✓ Göylərdə və yerdə nə varsa Onun ovucunda olan qullarıdır.[4]

Müşriklər Onun rububiyyət tövhidini iqrar edirdi.[5]

---

[3] Yunus surəsi, 31-ci ayə
[4] Mədaricus-Səlikin 1/34

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ لَيَقُولُنَّ خَلَقَهُنَّ ٱلْعَزِيزُ ٱلْعَلِيمُ ۝٩﴾ [الزُّخْرُف : ٩]

"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, mütləq: "Onları Qüdrətli və Bilən (Allah) yaratmışdır!"– deyəcəklər."[6]

Onların rububiyyətinin olmasına baxmayaraq, onlar Uluhiyyət və Əsma və Sifət tövhidini iqrar etmədikcə bu onlardan qəbul deyildir.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱعْبُدُوا۟ رَبَّكُمُ ٱلَّذِى خَلَقَكُمْ وَٱلَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ ۝٢١﴾ [البَقَرَة : ٢١]

"Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız."[7]

---

[5] Qovlul-Mufid 1/9
[6] əz-Zuxruf surəsi, 9-cu ayə
[7] əl-Bəqərə surəsi, 21-ci ayə